2021.- 29 aprel XALQ QƏZETİ S.4.

# Horadiz–Ağbənd dəmir yolunun istifadəyə verilməsi işğaldan azad olunan ərazilərimizə gediş-gəlişi daha da asanlaşdıracaq

***Prezident İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlinin qoyulduğunu və bu dəmir yolunun Azərbaycanın əsas hissəsini Zəngəzur dəhlizi vasitəsilə Naxçıvana birləşdirəcəyini bəyan edib. Ümumi uzunluğu 100 kilometr olan dəmir yolu xətti ölkəmiz üçün həm strateji, həm də ciddi iqtisadi əhəmiyyətə malik olmaqla yanaşı, Zəngəzur dəhlizinin əsas elementlərindən biri olacaq.***



Artıq dəmir yolunun inşası ilə bağlı işlər gedir. Bu dəmir yolu xətti işğaldan azad olunan ərazilərimizə gediş-gəlişi daha da asanlaşdıracaq və vətəndaşlarımız alternativ nəqliyyat imkanından istifadə edə biləcəklər. Bərpa və yenidənqurma prosesindən sonra işğaldan azad olunan ərazilərimizə getmək istəyənlərin sayının çox olacağını nəzərə aldıqda bu nəqliyyat infrastrukturunun üstünlüklərini təsəvvür etmək çətin olmaz.

Dəmir yolu nəqliyyatının inkişaf etdirilməsi kontekstində dəhlizin istifadəyə verilməsi praktik olaraq Azərbaycanı regionun nəqliyyat qovşaqlarının habına çevirir. Azərbaycan “Şərq-Qərb” və “Şimal-Cənub” nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına maliyyə dəstəyi göstərir.

Horadiz-Ağbənd dəmir yolu xətti Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsi ilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də, “Şərq-Qərb” nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından əhəmiyyətli olacaq.

Dəhliz, eyni zamanda, Azərbaycanın qərb hissəsində fəaliyyət göstərən iş adamları ilə Naxçıvandakı özəl bölmə nümayəndələri arasında əlaqələrin, əməkdaşlığın qurulması baxımından da vacibdir. Bu isə qısa vaxtda məhsulların nəql edilməsinə imkan yaradılması deməkdir. Bunun Azərbaycanın iqtisadi inkişafına, eləcə də Naxçıvan Muxtar Respublikasının iqtisadiyyatına müsbət təsirləri də şübhəsizdir.

Zəngəzur dəhlizi ilə yalnız dəmir yolu deyil, eyni zamanda, avtomobil yolunun da istifadəyə veriləcəyi gözlənilir.

***Vüqar BAYRAMOV,***
***Milli Məclisin deputatı***